ədalət.-2019.28.may.S.3.

# KÜRDƏMİR: ARZULAR GERÇƏKLƏŞİR

**Artıq neçə illərdir ki, Kürdəmir rayonunda tikinti-quruculuq və müasirləşmə işləri dinamik inkişafla davam etməkdədir. Biz "Ədalət" qəzeti olaraq müntəzəmliklə bu istiqamətdə görülən tədbirlər barədə söhbət açıb oxuculara məlumat veririk. Məsələ burasındadır ki, onillərlə ciddi yanaşılmayan bir sıra problemlərin indi sürətlə öz həllini tapması, gerçəkdən rayon rəhbərliyinin qüvvələri səfərbər etmək bacarığından irəli gəlir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğı və diqqətindən daha da ruhlanan kürdəmirlilər bütün sahələrdə yeni-yeni uğurlar qazanmaq əzmindədirlər. Rayonun bütün qəsəbə və kəndlərində, xüsusilə Kürdəmir şəhərində müasirləşməyə yönəlik mühüm tədbirlər həyata keçirilir. Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərovun sakinlərlə birlikdə ötən illərdən təməli qoyulan bir çox mühüm işlərin timsalında bir-birindən gözəl arzular reallaşaraq insanlara sevinc bəxş edir. Şəhərin girəcəyində salınmış Bayraq Meydanı və yaraşıqlı istirahət parkı boyunca Heydər Əliyev Mərkəzi və ətrafındakı ikinci bir müasir park, digər yeni tikililər son illərin yadigarıdır.






Şəhərin mərkəzi küçələrindən başlayaraq ucqar yerlərə doğru əsaslı abadlıq və yenidənqurma işləri eyni həvəs və işgüzarlıqla davam edir. Burada bir nüansı da qeyd etməliyik. Abadlıqla bağlı kütləvi tədbirlərin hər birində icra hakimiyyəti aparatının işçiləri də yüksək fəallıq nümunəsi göstərirlər. Bütün bunların mənəvi-etik çalarları rayon rəhbərliyinin şəxsi münasibətində, gündəlik fəaliyyətində xüsusi diqqət çəkir.

Təbii ki, iqtisadi yüksəlişin rolu daha böyükdür. Respublikanın hər yerində olduğu kimi Kürdəmir rayonunda da dördüncü Dövlət Proqramının icrasına uğurla başlanılmışdır. Elə bu günlərdə rayonda keçirilən 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaqda da bu və digər mühüm məsələlər haqqında geniş söhbət getmişdir. Yığıncaqda məruzə ilə çıxış edən Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov demişdir:

- Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sədrliyi ilə Respublika Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş 30 aprel tarixli iclasında bu ilin 3 ayında görülmüş işlər ətraflı təhlil edilmiş, qazanılan nailiyyətlər yüksək qiymətləndirilmişdir. Möhtərəm Cənab Prezidentimiz müşavirədə son illər ərzində müxtəlif mərhələlərdə islahatların aparıldığını və bu islahatlar nəticəsində ölkəmizin inkişaf etdiyini, son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmadığını qeyd etdi. Cənab Prezident müşavirədə ölkəmizdə çox böyük infrastruktur layihələrin icra edildiyini, insanların rifah halının yaxşılaşdığını və Respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradıldığını bildirdi.Cənab Prezident qeyd etmişdir ki, birinci rübdə ümumi daxili məhsul 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz, kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri 5,5 faiz artmış, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulmuş və bu sərmayənin 2 milyardı ölkəmizin qeyri neft sektoruna yatırılıb.Cənab Prezident birinci rübdə büdcə daxilolmalarının 200 milyon manatdan çox artdığını, bunun 150 milyon manatdan çox hissəsinin vergi sahəsində, 50 milyon manatdan çox hissəsinin isə gömrük sahəsində əldə edildiyini qeyd etdi. Cənab Prezident müşavirədə minimum əmək haqqının və minimum pensiyaların təxminən 40 faiz, sosial müavinətlərin orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinətlərin 50 faiz, tələbələrin təqaüdünün, Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə verilən müavinətlərin artdığını qeyd etdi.Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşımızda yeni vəzifələr qoyduğunu və infrastruktur layihələrinin icrasının diqqət mərkəzində saxlanıldığını, Ağsu, İsmayılı və Şamaxı rayonlarında baş vermiş zəlzələnin fəsadlarının uğurla aradan qaldırıldığını deyən dövlətimizin başçısı Azərbaycan vətəndaşını əmin etdi ki, dövlət həmişə onların yanında olacaqdır. Cənab Prezidentimiz müşavirədə şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı imzaladığı fərmanın icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsinin dövlət tərəfindən 11 min manat məbləğində vəsait alacağını, 100 minlərlə insanı narahat edən problemli kredit məsələsinin uğurla həll olunduğunu, kompensasiyaların verilməsi prosesinə başlanıldığını bildirdi...

Hesabat dövründə Kürdəmir rayonunda görülən işlərdən danışan Ceyhun Cəfərov bildirib ki, 2019-cu ilin 3 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsul 10,2 faiz artaraq 77341,4 min manat olmuşdur. Ümumi daxili məhsulun 56,4 faizi məhsul istehsalı sahəsində, 43,6 faizi xidmət sahələrində olmuşdur.Rayonun sosial-iqtisadi inkişafı Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 2019-cu ilin birinci rübündə 289 nəfər işlə təmin olunmuşdur ki, bundan 274 nəfəri daimi, 15 nəfəri isə müvəqqəti və mövsümü işlə təmin olunanlardır.Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən "DOST İş Mərkəzi" MMC-nin vasitəsi ilə rayonda ictimai işlərə 355 nəfər işaxtaran vətəndaş cəlb edilmişdir. 2019-cu ilin aprel ayında 61 nəfər işaxtaran vətəndaş Azəriqaz İstehsalat Birliyində, 35 nəfər "Azərişıq" ASC-də, 8 nəfər isə "Şirvan" Regional Enerji idarəsində sosial işlələrə cəlb olunmuşlar. Cənab Prezidentimizin diqqət mərkəzində saxladığı məsələlərdən biri olan əhalinin özünüməşğulluğunun təmin olunması ilə əlaqədar rayonda özünəməşğulluq proqramına cəlb olunmaq üçün 600 nəfərin ərizə anketi qeydiyyata alınmış, özünüməşğulluq proqramına uyğun iştirakçıların yaşayış ünvanlarına baxış keçirilmiş, birinci mərhələ üçün 16 nəfər seçilərək onlarla təlimlərə başlanılmışdır.

**Hesabat dövründə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayonda aqrar sektorun inkişafına diqqət daha da artırılmışdır. Rayonda taxıl istehsalının artırılması üçün tədbirlər davam etdirilmişdir. Bu ilin məhsulu üçün ötən ilin payızında 18120 hektarda buğda, 29926 hektarda arpa olmaqla cəmi 48046 hektar sahədə dənlik taxıl əkilmişdir.**



**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**